# The Procter & Gamble Company

## Məlumatların Məxfilik Çərçivəsi: İstehlakçılar üzrə Məxfilik Siyasəti

**Son yenilənmə: 10 iyul 2024**

The Procter & Gamble Company və onun Qoşma 1-də göstərilən ABŞ-dakı törəmə şirkətləri və filialları (ümumilikdə "P&G") məxfiliklə bağlı narahatlığınızı diqqətə alırlar.

P&G ABŞ Ticarət Nazirliyi tərəfindən idarə edilən Aİ-ABŞ Məlumatların Məxfilik Çərçivəsi (Aİ-ABŞ DPF), Aİ-ABŞ DPF-in BK Əlavəsi və İsveçrə-ABŞ Məlumatların Məxfilik Çərçivəsi (İsveçrə-ABŞ DPF) (ümumilikdə "DPF") proqramının iştirakçısıdır. P&G DPF çərçivəsində Aİ, Birləşmiş Krallıq və İsveçrədən qəbul etdiyi İstehlakçı Şəxsi Məlumatları ilə bağlı DPF Prinsiplərinə əməl etməyi öhdəsinə götürür. Bu Siyasətdə İstehlakçı Şəxsi Məlumatları ilə əlaqəli olaraq P&G-nin Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərini necə həyata keçirdiyi təsvir olunur. Bu Siyasətin və Aİ-ABŞ DPF Prinsiplərinin və/və ya İsveçrə-ABŞ DPF Prinsiplərinin şərtləri arasında hər hansı ziddiyyət olarsa, Məlumatların Məxfilik Çərçivəsi Prinsipləri üstün tutulacaq. Bu Siyasətdə istifadə edilən təfsirlər yalnız bu Siyasət ilə və P&G-nin Məlumatların Məxfilik Çərçivəsi təsdiqləməsi ilə əlaqəli olaraq tətbiq edilir.

**"İstehlakçı"** Aİ, BK və ya İsveçrədə yaşayan, lakin İşçi kimi hər hansı fərdi fəaliyyət göstərməyən istənilən fiziki şəxsə deyilir.

**"Kontroller"** Şəxsi Məlumatların emal məqsədlərini və vasitələrini təkbaşına və ya digərləri ilə birlikdə müəyyən edən şəxsə, yaxud təşkilata deyilir.

**"Məlumatların Məxfilik Çərçivəsi Prinsipləri"** və ya **"DPF Prinsipləri**" DPF-in Prinsiplərinə və Əlavə Prinsiplərinə deyilir.

**"Aİ"** Avropa İttifaqı, İslandiya, Lixtenşteyn və Norveçə deyilir.

**"Şəxsi Məlumatlar"** Həssas Məlumatlar daxil olmaqla, (i) müəyyən edilən və ya müəyyən edilə bilən şəxs barədə, (ii) ABŞ-də P&G tərəfindən Aİ, BK və ya İsveçrədən qəbul edilmiş və (iii) istənilən formada yazılmış hər hansı məlumata deyilir.

**"Emalçı"** Şəxsi Məlumatları Kontrollerin adından emal edən hər hansı fiziki və ya hüquqi şəxsə, hökumət orqanına, agentliyə, yaxud digər quruma deyilir.

**"Həssas məlumatlar"** tibbi və ya sağlamlıq vəziyyətini, irqi və ya etnik mənşəyi, siyasi fikirləri, dini və ya fəlsəfi inancları, həmkarlar ittifaqı üzvlüyünü (həmkarlar ittifaqı ilə bağlı fikirlər və ya fəaliyyətlər daxil olmaqla), seksual həyatı (şəxsin cinsi həyatı daxil olmaqla) göstərən Şəxsi Məlumatlara, sosial müdafiə tədbirləri, hər hansı cinayətin törədilməsi və ya törədildiyinin iddia edilməsi, şəxsin hər hansı cinayəti törətməsi və ya törətdiyinin iddia edilməsi ilə əlaqədar istənilən məhkəmə prosesi və ya bu cür məhkəmə proseslərinin həyata keçirilməsi, yaxud bu cür məhkəmə proseslərində (inzibati məhkəmə prosesləri və cinayətlə bağlı cəza tədbirləri daxil olmaqla) istənilən məhkəmənin hökmü barədə məlumatlara deyilir.

"**BK**" Birləşmiş Krallıq (və Cəbəllüttariq) deməkdir.

**"İşçi"** P&G-nin və ya onun Aİ, BK və ya İsveçrədəki hər hansı törəmə şirkətinin və ya filialının hər hansı cari, keçmiş və ya potensial işçisinə, podratçısına, stajçısına və ya müvəqqəti işçisinə,

yaxud Aİ, BK və ya İsveçrədə yaşayan və Şəxsi Məlumatları əmək münasibətləri ilə əlaqəli olaraq P&G tərəfindən emal edilən hər hansı müvafiq şəxsə deyilir.

Məlumatların Məxfilik Çərçivəsi Proqramı barədə əlavə məlumatla birgə P&G-nin Məlumatların Məxfilik Çərçivəsi proqramına uyğunluğunun təsdiqlənməsi barədə məlumat burada mövcuddur: https://www.dataprivacyframework.gov/. P&G-nin öz veb-saytında toplanmış məlumatlarla əlaqədar İstehlakçı Şəxsi Məlumatlarını emal etməsi barədə əlavə məlumat üçün https://privacypolicy.pg.com/en/ ünvanında P&G-nin İstehlakçılar üzrə Qlobal Məxfilik Siyasətini nəzərdən keçirin.

**P&G-nin topladığı Şəxsi Məlumatların növləri**

P&G İstehlakçılar barədə Şəxsi Məlumatları müxtəlif yollarla əldə edir. Məsələn, İstehlakçılar P&G-nin veb-saytı və mobil tətbiqləri (ümumilikdə "Xidmətlər") ilə interaksiya etdikdə P&G Şəxsi Məlumatları birbaşa onlardan toplayır. Şirkət bu məlumatlardan P&G-nin İstehlakçılar üzrə Qlobal Məxfilik Siyasətində göstərilmiş məqsədlər üçün istifadə edə bilər.

P&G-nin İstehlakçılar barədə topladığı Şəxsi Məlumat növlərinə daxildir:

- əlaqə məlumatları (ləqəb, ayama və əvvəlki adlar daxil olmaqla ad, müraciət forması, e-poçt ünvanı, poçt ünvanı və telefon nömrəsi kimi);
- şəxsi xüsusiyyətlər və tərcihlər (yaş aralığı, evlilik və ailə vəziyyəti, alış-veriş tərcihləri, danışdığı dillər, loyallıq və mükafat proqramı məlumatları, ailə barədə demoqrafik məlumat, sosial media platformalarındakı məlumat, təhsil və peşə ilə bağlı məlumat, hobbilər və maraqlar, eləcə də üçüncü tərəflərin verdiyi meyillilik göstəriciləri (satınalma ehtimalı, həyatında vaqiələrin yaşanması və s.) kimi;
- tranzaksiya və kommersiya məlumatları (müştəri hesabı məlumatları, uyğunluqla bağlı məlumat, satınalma tarixçəsi və əlaqədar qeydlər, məhsulların və tətbiqlərin endirilməsi və satın alınması ilə bağlı qeydlər, müştərinin kimliyinin müəyyən edilməsi üçün toplanan qeyri-biometrik məlumat (şifrələr, hesab təhlükəsizliyi ilə əlaqəli suallar) və müştəri xidməti ilə bağlı qeydlər kimi);
- unikal ID-lər və hesab məlumatları (müştəri nömrəsi, hesab nömrəsi, abunə nömrəsi, mükafat proqramı nömrəsi kimi), sistem identifikatorları (istifadəçi adı və ya onlayn giriş məlumatları daxil olmaqla), cihaz reklamçıları, reklam ID-ləri və IP ünvanı;
- onlayn və texniki məlumatlar (IP ünvanı, MAC ünvanı, SSID-lər və ya digər cihaz identifikatorları, yaxud sabit identifikatorlar, onlayn istifadəçi ID-si, şifrələnmiş parol, cihaz xüsusiyyətləri (brauzer məlumatı kimi), veb-server jurnalları, tətbiq jurnalları, internetdən istifadə ilə bağlı məlumat, izləmə məlumatı (TV, internetdən yayım), veb-sayt və tətbiqdən istifadə, birinci tərəf kukiləri, üçüncü tərəf kukiləri, fləş kukilər, Silverlight kukiləri, veb-mayaklar, boş gif faylları və piksel teqləri kimi);
- dəqiq coğrafi mövqe (en/uzunluq kimi);
- sağlamlıqla əlaqəli məlumatlar (ümumi sağlamlıq və simptomlar barədə məlumat, hamiləliklə bağlı məlumat və ya fiziki, yaxud əqli sağlamlıq barədə məlumat, xəstəliyin ağırlığı, anamnez və ya müalicə, yaxud diaqnoz ilə bağlı məlumatlar, qəbul edilən dərmanlar və onlarla əlaqəli məlumatlar kimi);
- maliyyə məlumatları (bank hesabı nömrəsi və məlumatı, habelə ödəniş kartı məlumatları kimi);
- şəxsiyyət vəsiqəsi və ya VÖEN;
- audio və vizual məlumatlar ( fotoşəkillər, videogörüntülər, təhlükəsizlik kamerası qeydləri, çağrı mərkəzi qeydləri, nəzarət edilən zəng qeydləri və səsli e-məktublar kimi);
- ağıllı cihaz və sensor məlumatları (ağıllı cihaz qeydləri, IoT məhsulları kimi);
- ailə və ya uşaqlarla əlaqəli məlumatlar (uşaqlarınızın sayı, onların pampers ölçüləri, cinsi və yaşı kimi);

- biometrik məlumatlar (üz tanıma ilə bağlı məlumatlar və biometrik identifikatorunuzun riyazi modeli kimi); və
- bu bölmədə göstərilmiş digər məlumatlardan törəyən məlumat.

Bundan əlavə, P&G öz təchizatçılarının nümayəndələrinin (ödəniş emalçıları və daşıyıcılar kimi) əlaqə məlumatları və maliyyə hesabları kimi Şəxsi Məlumatları da əldə edir. P&G bu məlumatlardan bu tərəflərlə qarşılıqlı əlaqələrini idarə etmək, ödənişləri emal etmək və özünün müqavilə öhdəliklərini yerinə yetirmək üçün istifadə edir.

P&G İstehlakçı Şəxsi Məlumatlarını başqa yollarla da əldə edə və istifadə edə bilər. Belə hallarda P&G məlumatları toplayarkən xüsusi bildiriş göndərir.

P&G-nin İstehlakçı Şəxsi Məlumatlarının emalı ilə bağlı məxfilik təcrübələri Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinə dair Bildiriş; Seçim; Sonradan ötürülməyə görə məsuliyyət; Təhlükəsizlik; Məlumatların bütövlüyü və məqsədin məhdudlaşdırılması; Giriş; Müraciət, qanunların tətbiqi və öhdəliklərə uyğundur.

**Bildiriş**

P&G bu Siyasətdə və şirkətin İstehlakçılar üzrə Qlobal Məxfilik Siyasətində P&G-nin topladığı Şəxsi Məlumatların növləri, P&G-nin Şəxsi Məlumatları açıqladığı üçüncü tərəflərin növləri və açıqlama məqsədləri, Şəxsi Məlumatlarının istifadəsi və açıqlanmasının məhdudlaşdırılması ilə bağlı İstehlakçıların hüquqları və seçimləri, habelə P&G-nin Şəxsi Məlumatlarla əlaqəli prosedurlar barədə əlaqə saxlama qaydası daxil olmaqla, özünün İstehlakçı Şəxsi Məlumatları üzrə prosedurları barədə məlumat təmin edir.

Müvafiq məlumatlar xüsusi məlumat emalı fəaliyyətləri ilə əlaqədar bildirişlərdən də əldə edilə bilər.

**Seçim**

P&G adətən İstehlakçılara Şəxsi Məlumatlarının (i) üçüncü tərəf Kontrollerlərə açıqlana biləcəyi və ya (ii) məlumatların ilkin olaraq toplandığı və ya toplandıqdan sonra müvafiq İstehlakçı tərəfindən icazə verildiyi məqsədlərdən əhəmiyyətli dərəcədə fərqlənən məqsəd üçün istifadə edilə biləcəyi ilə bağlı seçim etmək imkanı verir. P&G Həssas Məlumatların müəyyən istifadəsi və açıqlanması üçün Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinin tələb etdiyi şəkildə razılıq əldə edir. İstehlakçılar Şəxsi Məlumatlarının P&G tərəfindən istifadəsi və ya açıqlanması ilə bağlı aşağıda göstərilən qaydada şirkətlə əlaqə saxlaya bilərlər. P&G İstehlakçılara müvafiq seçim təklif etmədiyi halda, şirkət Şəxsi Məlumatlardan, demək olar ki, yalnız bu Siyasətdə göstərilən məqsədlərlə eyni olan məqsədlər üçün istifadə edir.

*İstehlakçı Şəxsi Məlumatlarının paylaşılması*

Bu Siyasətdə və P&G-nin İstehlakçılar üzrə Qlobal Məxfilik Siyasətində P&G-nin İstehlakçı Şəxsi Məlumatlarını necə paylaşdığı təsvir olunur.

P&G İstehlakçı Şəxsi Məlumatlarını özünün filialları və törəmə şirkətləri (buraya P&G-nin biznes fəaliyyətinin həyata keçirilməsi, habelə P&G-nin məhsul və xidmətlərinin təmin edilməsi məqsədilə P&G-nin şirkətlər şəbəkəsinə aid olan istənilən müəssisə daxil ola bilər) ilə paylaşır. P&G İstehlakçı Şəxsi Məlumatlarını şirkət adından ödənişlərin emal edilməsi və ödənişlərə icazə verilməsi, sifarişin yerinə yetirilməsi, daşıma, gömrükdən keçirilmə, marketinq, məlumatların təhlili, müştəriyə dəstək və saxtakarlığın qarşısının alınması kimi xidmətlərin yerinə yetirilməsi məqsədilə tutduğu üçüncü tərəf Emalçılar ilə də paylaşa bilər. Bu üçüncü tərəf

Emalçılar İstehlakçı Şəxsi Məlumatlarını yalnız P&G-nin adından və P&G-nin göstərişlərinə uyğun olaraq, P&G-yə yuxarıda qeyd edilmiş xidmətlər kimi xidmətlərin göstərilməsi məqsədilə istifadə edə bilərlər. P&G İstehlakçı Şəxsi Məlumatlarını imtina imkanı vermədən və Şəxsi Məlumatların açıqlanması tələb edilə biləcəyi üçün (i) onun adından və onun göstərişlərinə uyğun olaraq xidmətlərin yerinə yetirilməsi məqsədilə tutduğu üçüncü tərəf Emalçılara, (ii) bunun edilməsi qanunla və ya məhkəmə prosesi ilə tələb edildiyi halda, yaxud (iii) hökumət orqanlarının qanuni tələblərinə (milli təhlükəsizlik, dövlət maraqları və ya hüquq-mühafizə orqanlarının tələblərinə əməl edilməsi daxil olmaqla) uyğun olaraq açıqlaya bilər. P&G audit zamanı və ya şirkət öz biznesini və ya aktivlərini bütövlükdə, yaxud qismən satdığı və ya ötürdüyü halda da (birləşmə, əldəetmə, birgə müəssisə, yenidən qurulma, şirkətin işini dayandırması və ya ləğv edilməsi halları daxil olmaqla) Şəxsi Məlumatları ötürmək hüququnu özündə saxlayır.

**Şəxsi Məlumatların sonradan ötürülməsinə görə məsuliyyət**

Bu Siyasətdə və P&G-nin İstehlakçılar üzrə Qlobal Məxfilik Siyasətində P&G-nin İstehlakçı Şəxsi Məlumatlarını necə paylaşdığı təsvir olunur.

Müvafiq qanunla icazə verilən və ya tələb edilən hallar istisna olmaqla, P&G İstehlakçılara Şəxsi Məlumatlarının üçüncü tərəf Kontrollerləri ilə paylaşılmasından imtina etmək imkanı verir. P&G İstehlakçı Şəxsi Məlumatlarını açıqladığı üçüncü tərəf Kontrollerlərindən tələb edir ki, onlar (i) Şəxsi Məlumatları yalnız müvafiq İstehlakçı tərəfindən verilmiş razılığa uyğun olaraq, məhdud və müəyyən məqsədlər üçün emal edəcəklərini, (ii) Şəxsi Məlumatların qorunmasını Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinin tələb etdiyi səviyyədə təmin edəcəklərini və (iii) üçüncü tərəf Kontrolleri Şəxsi Məlumatların qorunmasını Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinin tələb etdiyi səviyyədə təmin edilməsi öhdəliyini yerinə yetirə bilmədiyini təyin edərsə, P&G-ni məlumatlandıracağını və Şəxsi Məlumatların emalını dayandıracağını (və ya digər əsaslı və müvafiq tədbirlər görəcəyini) müqavilə ilə qəbul etsinlər.

İstehlakçı Şəxsi Məlumatlarının üçüncü tərəf Emalçılarına ötürülməsi ilə əlaqəli olaraq P&G (i) hər bir müvafiq Emalçı ilə müqavilə bağlayır, (ii) Şəxsi Məlumatları hər bir belə Emalçıya yalnız məhdud və müəyyən məqsədlər üçün ötürür, (iii) Emalçının Şəxsi Məlumatların qorunmasını ən azı Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinin tələb etdiyi səviyyədə təmin etmək üçün öhdəlik götürməsini təmin edir, (iv) Emalçının Şəxsi Məlumatları P&G-nin Məlumatların Məxfilik Çərçivəsi Prinsipləri ilə bağlı öhdəliklərinə uyğun olaraq effektiv şəkildə emal etməsini təmin etmək üçün əsaslı və müvafiq addımlar atır, (v) Emalçıdan əgər Emalçı Şəxsi Məlumatların qorunmasını Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinin tələb etdiyi səviyyədə təmin edilməsi öhdəliyini yerinə yetirə bilmədiyini təyin edərsə, P&G-ni məlumatlandırmasını tələb edir, (vi) bildiriş təqdim etməklə (yuxarıdakı (v) bənd daxil olmaqla) Emalçının Şəxsi Məlumatları icazəsiz emal etməsini dayandırmaq və mənfi nəticələri aradan qaldırmaq üçün əsaslı və müvafiq addımlar atır və (vii) tələb edildiyi halda, Emalçı ilə olan müqavilənin məxfilik üzrə müvafiq şərtlərinin icmalını və ya nümunə-surətini Ticarət Nazirliyinə təqdim edir. P&G-nin üçüncü tərəf Emalçısının sonradan məlumat ötürdüyü alıcıları müvafiq Şəxsi Məlumatları Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinə uyğun olmayan şəkildə emal edərlərsə, P&G ziyanla nəticələnən hal üçün cavabdeh olmadığını sübut etmədiyi təqdirdə Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinə əsasən məsuliyyət daşımağa davam edir.

**Təhlükəsizlik**

P&G İstehlakçı Şəxsi Məlumatlarının itirilməsinin, sui-istifadə edilməsinin, icazəsiz olaraq əlçatanlığının təmin edilməsinin, açıqlanmasının, dəyişdirilməsi və məhv edilməsinin qarşısını

almaq üçün emal ilə əlaqəli riskləri və Şəxsi Məlumatların xüsusiyyətini nəzərə alaraq əsaslı və müvafiq tədbirlər həyata keçirir.

**Məlumatların bütövlüyü və məqsədin məhdudlaşdırılması**

P&G emal etdiyi İstehlakçı Şəxsi Məlumatlarını konkret emal məqsədləri üçün uyğun olan dərəcədə məhdudlaşdırır. P&G İstehlakçı Şəxsi Məlumatlarını onların toplanması üçün nəzərdə tutulmuş və ya toplandıqdan sonra müvafiq İstehlakçı tərəfindən icazə verilən məqsədlərə uyğun olmayan yollarla emal etmir. Bundan əlavə, P&G emal etdiyi Şəxsi Məlumatların (i) nəzərdə tutulmuş istifadə üçün etibarlı, (ii) dəqiq, tamamlanmış və aktual olmasını təmin etmək üçün bu məqsədlərlə zəruri olan dərəcədə əsaslı addımlar atır. Bununla əlaqəli olaraq, P&G məlumatların toplandığı və ya sonradan icazə verildiyi məqsədlər üçün lazım olan dərəcədə müvafiq Şəxsi Məlumatları yeniləmək və düzəltmək məqsədilə öz İstehlakçılarına etibar edir. İstehlakçılar aşağıda göstərilən qaydada P&G ilə əlaqə saxlayaraq P&G-nin müvafiq Şəxsi Məlumatları yeniləməsini və ya düzəltməsini istəyə bilərlər.

P&G müvafiq qanuna uyğun olaraq İstehlakçı Şəxsi Məlumatlarını elə formada saxlayır ki, məlumatlar onların toplanması üçün nəzərdə tutulmuş və ya toplandıqdan sonra müvafiq İstehlakçı tərəfindən icazə verilən məqsədlərə uyğun olan məqsədə xidmət etdikləri halda müvafiq İstehlakçını müəyyən edir və ya müəyyən edilməsinə kömək edir.

**Giriş**

Ümumilikdə, İstehlakçıların öz Şəxsi Məlumatlarına giriş hüququ var. Zəruri olduğu halda, P&G İstehlakçıların P&G-nin onlarla bağlı saxladığı Şəxsi Məlumatlara girişini müvafiq qaydada təmin edir. Bundan əlavə, P&G həmin İstehlakçıları səhih olmayan və ya Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinin pozulması ilə emal edilmiş məlumatlarını düzəltmək, dəyişdirmək və ya silmək üçün müvafiq imkanla təmin edir. P&G girişin təmin edilməsi ilə bağlı yük və ya xərcin sözügedən halda İstehlakçının məxfiliyi üçün yaratdığı risklərə qeyri-mütənasib olacağı və ya İstehlakçıdan başqa şəxslərin hüquqlarının pozulacağı hallarda Şəxsi Məlumatlara girişi məhdudlaşdıra və ya rədd edə bilər. İstehlakçılar aşağıda göstərilən qaydada P&G ilə əlaqə saxlayaraq Şəxsi Məlumatlarına girişin təmin edilməsini tələb edə bilərlər.

**Müraciət, qanunların tətbiqi və öhdəliklər**

P&G-nin Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinə uyğunluğun təmin olunmasına kömək etmək üçün nəzərdə tutulmuş mexanizmləri var. P&G-nin Məlumatların Məxfilik Çərçivəsi Prinsipləri ilə bağlı təsdiqləmələrinin və bəyanatlarının düzgün olduğunu, habelə P&G-nin məxfilik prosedurlarının Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərində göstərilən qaydada və ona uyğun olaraq yerinə yetirilmiş olduğunu yoxlamaq üçün P&G İstehlakçı Şəxsi Məlumatları üzrə illik özünüqiymətləndirmə həyata keçirir.

P&G Məlumatların Məxfilik Çərçivəsinə uyğun olaraq, P&G-nin İstehlakçı Şəxsi Məlumatlarını toplaması və istifadəsi üzrə Məlumatların Məxfilik Çərçivəsi Prinsipləri ilə bağlı şikayətləri həll etməyi öhdəsinə götürür. P&G-nin Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinə uyğun olaraq əldə edilmiş Şəxsi Məlumatları idarə etməsi ilə bağlı sual və ya şikayətləri olan İstehlakçılar əvvəlcə aşağıda göstərilən qaydada P&G ilə əlaqə saxlamalıdırlar.

P&G Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinə əməl etməməsi səbəbilə (iddia edildiyinə görə) ortaya çıxan problemləri həll etmək üçün müvafiq addımlar atacaq.

P&G-nin daxili prosesləri ilə İstehlakçı şikayətini həll etmək mümkün olmasa, P&G JAMS veb-saytında təsvir olunmuş JAMS Məlumatların Məxfilik Çərçivəsi Proqramına uyğun olaraq

JAMS ilə əməkdaşlıq edəcək (https://www.jamsadr.com/eu-us-data-privacy-framework). JAMS vasitəçiliyini JAMS qaydalarına uyğun olaraq başlatmaq olar. JAMS xidmətlərinin göstərilməsinə görə İstehlakçıdan pul tutulmur. Mübahisəli məsələnin həlli prosesindən sonra vasitəçi və ya İstehlakçı məsələni P&G ilə bağlı istintaq aparmaq və qanunun həyata keçirilməsinə nəzarət etmək səlahiyyətinə malik olan ABŞ Federal Ticarət Komissiyasına ötürə bilər. Bəzi hallarda İstehlakçılar P&G-nin Məlumatların Məxfilik Çərçivəsi Prinsiplərinə uyğunluğu ilə bağlı şikayətləri həll etmək üçün əməl edilməsi məcburi olan arbitraj qərarı üçün də müraciət edə bilərlər.

**P&G ilə əlaqə saxlama qaydası**

Bu Siyasət və ya P&G-nin İstehlakçı Şəxsi Məlumatları ilə əlaqəli prosedurları barədə sual və ya şikayətlərlə bağlı P&G ilə əlaqə saxlamaq üçün:

The Procter & Gamble Company
Adresat: Məlumatların mühafizəsi üzrə mütəxəssis
1 Procter & Gamble Plaza
Cincinnati, OH 45202

E-poçt: pgprivacyofficer.im@pg.com

# Qoşma 1

## Məlumatların Məxfilik Çərçivəsinə uyğunluğu təsdiqlənmiş, P&G-nin ABŞ-dəki müəssisələri

| |
|---|
| The Procter & Gamble Company |
| 1837, LLC |
| Agile Pursuits Franchising, Inc. |
| Agile Pursuits, Inc. |
| Celtic Insurance Company, Inc. |
| Charlie Banana (USA), LLC |
| Farmacy Beauty, LLC |
| First Aid Beauty Limited |
| Fountain Square Music Publishing Co., Inc. |
| Gillette Commercial Operations North America |
| Gillette Holding Company LLC |
| Gillette Management, LLC |
| Grooming Ventures - FL LLC |
| Grooming Ventures LLC |
| Liberty Street Music Publishing Company, Inc. |
| Mielle Organics, LLC |
| Mielle, Inc. |
| Oral-B Laboratories |
| P&G Hair Care Holding, Inc. |
| Procter & Gamble Commercial LLC |
| Procter & Gamble do Brazil, LLC |
| Procter & Gamble Eastern Europe, LLC |
| Procter & Gamble Energy Company LLC |
| Procter & Gamble Far East, Inc. |
| Procter & Gamble Hair Care, LLC |
| Procter & Gamble Holding LLC |
| Procter & Gamble India Holdings, Inc. |
| Procter & Gamble Leasing LLC |
| Procter & Gamble Mexico (US) LLC |
| Procter & Gamble Productions, Inc. |
| Procter & Gamble RHD, Inc. |
| Proof Company, LLC |
| Redmond Products, Inc. |
| Richardson-Vicks Real Estate Inc. |
| Riverfront Music Publishing Co., Inc. |
| Rosemount LLC |
| Shulton, Inc. |
| Sunflower Distributing LLC |
| Tambrands Inc. |

| |
|---|
| TAOS - FL, LLC |
| The Dover Wipes Company |
| The Gillette Company LLC |
| The Procter & Gamble Distributing LLC |
| The Procter & Gamble Global Finance Company, LLC |
| The Procter & Gamble Manufacturing Company |
| The Procter & Gamble Paper Products Company |
| The Procter & Gamble U.S. Business Services Company |
| This is L. Inc. |
| Tula Life, Inc. |
| United Beauty Brands, LLC |
| US CD LLC |
| Walker & Co. Brands, Inc. |
| Zenlen, Inc. |